# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞ

Tarixi Zəfər nəticəsində əldə etdiyimiz yeni dövrün reallıqları həm Böyük Qayıdışın başlanmasını sürətləndirir, həm də Azərbaycanı dünyaya əsl qurucu dövlət kimi tanıdır.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**




Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın müddətdə Ermənistan Respublikası tərəfindən işğal altında saxlanılmışdır. İşğal dövründə bu ərazilərdə Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılmış, milli-mədəni irsimiz məhv edilmiş, təbii sərvətlərimiz talan edilmiş, iqtisadiyyata əhəmiyyətli zərər vurulmuş, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.



2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu əks-həmlə əməliyyatına başlamış və 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olunmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir.

Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülmüşdür.



İşğaldan azad edilmiş ərazilərə böyük qayıdışın Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunması, ölkə prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi, qəbul olunmuş digər sənədlər və həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edərək dövlətimizin Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində, əhalinin dayanıqlı məskunlaşmasında və davamlı iqtisadi inkişafın təmin olunmasında məqsədyönlülüyünün göstəricisidir.

İşğaldan azad edilmiş ərazilərdə Azərbaycanın göstərdiyi istiqrarlı davranış ölkəmizin beynəlxalqarenadakı nüfuzunu və bölgəyə olan marağı günü-gündən artıraraq, xariciinvestisiyalarınprioritetlərinindəqiqmüəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud olan enerji mənbələri, qiymətli yeraltı sərvətlər, xammal yataqları və çox sayda cəzbedici investisiya üstünlükləri bölgəyə parlaq gələcək vəd edir.



Hazırda Qarabağ və Şərqi Zəngəzurun inkişafı üçün investisiya iqliminin şərtləndirilməsində əsas olan siyasi, iqtisadi, hüquqi və sosial amillərin normallaşması prosesi gedir.

Qarşımıza qoyulmuş hədəflərinin reallaşdırılmasında "Böyük Qayıdışı" təmin edən infrastrukturun yaradılması ön plana çəkilmiş və hazırlanarkən mütərəqqi beynəlxalq təcrübəyə istinad olunmuşdur. Bundan başqa, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır.

İşğaldan azad edilmiş ərazilərin tam mənada inkişafına nail olmaq üçün birinci növbədə ən böyük təhlükə hesab edilən minaların və partlamamış hərbi sursatın zərərsizləşdirilməsidir. Bu, çətin bir iş olmaqla bərabər təəssüf ki, həm də uzun müddət tələb edən bir işdir.Bununla həmin ərazilər bütövlükdə tam təhlükəsiz yaşayış və sosial-iqtisadi həyatın bərpası üçün uyğun olacaq.

Strateji əhəmiyyət kəsb edən işlərin çevik həlli və ərazilərin inkişafı üçün Azərbaycanın artıq konkret yol xəritəsi vardır. Bununla biz həyat əlaməti qaytarılacaq ərazilərimizi ölkənin sosial, iqtisadi, mədəni həyatına bağlayacaq, əhalinin layiqli həyat şəraitini təmin edəcəyik.

Yeni yolların çəkilməsi, bölgədə müasir rabitə infrastrukturunun qurulması, ətraf mühitin qorunması, ekoloji cəhətdən təmiz enerji mənbələrinin yaradılması prosesi artıq başlamışdır. Ermənilər tərəfindən 30 il ərzində məqsədli şəkildə tamamilə dağıdılmış ərazilərdə hazırda ardıcıl və sürətli şəkildə tikinti işləri aparılır.




Füzulidən Şuşaya çəkilən ilk yol dönüşün uğurlu simvoludur. Hazırda dövlət büdcəsindən ayrılan vəsait hesabı-na işğaldan azad olunan ərazilər-də 15 avtomobil yolunun tikintisi hə-yata keçirilir və bütün avtomobil yolu layihələrinin 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulur. Nəqliyyat şəbəkəsi ilə yanaşı, paytaxtla işğaldan azad olunmuş ərazilər arasında əlaqələrin yaradılması, yükdaşımaların daha sürətli və səmərəli həyata keçirilməsi üçün "Qarabağın hava qapısı" adlandırılan Füzuli və Zəngilan Beynəlxalq Hava Limanları artıq istifadəyə verilmişdir. Hazırda üçüncü hava limanı Laçın şəhərində tikilməkdədir. Bunlar quru yol, hava yolu, dəmir yolu ilə bağlı işlərin ilkin qismidir, əlbəttə ki, Dövlət Proqramlarına uyğun olaraq bu proses davamlı şəkildə gedəcək.




İşğal dönəmində ərazilərimizdəki təbii resurslardan qeyri-insani istifadə və ətraf mühitin qəsdən çirkləndirilməsi ölkəmizin iqtisadiyyatına ciddi ziyan vurub. Torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsinə cəlb olunması, əkilib becərilməsi, heyvandarlıq

təsərrüfatlarının bərpa olunması üçün su anbarlarının gələcək istismarı, hidroehtiyatların ölkənin su təsərrüfatı sisteminə inteqrasiyası da bərpa prosesinin və Böyük Qayıdışın tərkib hissəsidir.

İşğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsinə də xüsusi əhəmiyyət verilir. Qarabağ və Şərqi Zəngəzurun "Yaşıl Enerji Zonası" elan edilməsi, bu ərazilərin bərpası və inkişafında strateji hədəflərdəndir. Artıq alternativ enerji mənbələrinin istifadəsi üçün dünyanın önəmli enerji şirkətləri ilə müqavilələr imzalanır. Qarabağ və Şərqi Zəngəzurun işğaldan sonra Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün yeni elektrik stansiyaları və yarımstansiyalar tikilir. Qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun aparılan, "Yaşıl" texnologiyaların və "ağıllı" sistemlərin tətbiqi vasitəsi ilə həm külək, həm günəş enerjisindən istifadə edilərək, hərbi obyektlərin, yeni yaradılan sosial-iqtisadi infrastrukturun fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təminatı təşkil ediləcəkdir.

İşğaldan azad edilmiş ərazilərdə qaz, istilik təchizatı ilə təminat, eyni zamanda yerləşən tarixi abidələrin bərpası işinin təşkili, abidələrin inventarlaşdırılması, mədəniyyət və idman obyektlərinin bərpası və yenidən qurulmasıişləri gələcəkdə sürətli məskunlaşmaya şərait yaradacaqdır.

Hazırda məcburi köçkünlərin könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurda qayıdışı dövlət siyasətinin mühüm prioritetidir. İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində görülən işlər getdikcə sürətlənir, Böyük Qayıdış proqramı icra olunur.

2026-cı ilə qədər Böyük Qayıdış proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır. Hal-hazırda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun 3 şəhərində (Laçın, Füzuli, Şuşa) və 4 kəndində azərbaycanlıların məskunlaşdırılması təmin edilmişdir. Zəngilanın Ağalı kəndi azərbaycanlıların işğaldan sonra məskunlaşdığı ilk yaşayış yeridir. 10 may 2024-cü il tarixindən etibarən, keçmiş Laçın dəhlizinə daxil olan 3 yaşayış məntəqəsində də (Laçın, Zabux və Sus) azərbaycanlıların məskunlaşdırılması təmin edilmişdir.

Ağdama bəzən Qafqazın Hiroşiması da deyilir, çünki 1993-cü ilin iyulunda, Birinci Qarabağ müharibəsi zamanı şəhər erməni qüvvələri tərəfindən işğal və məhv edilmişdir. Sonrakı onilliklərdə tərk edilmiş şəhər tikinti materialları əldə etmək istəyən ermənilər tərəfindən talan edilmişdir. Ermənilərin nəzarəti altında şəhərdə sağ qalan yeganə tikili olan Ağdam məscidi inək və donuz saxlamaq üçün tövlə kimi istifadə olunurdu.

20 noyabr 2020-ci il tarixində atəşkəs razılaşması çərçivəsində şəhər və ətrafı Azərbaycana qaytarılmışdır. Bundan dərhal sonra Azərbaycan hakimiyyəti bərpa prosesinə başlamaq planını açıqlamışdır. Şəhərin təsdiq edilmiş baş planına əsasən dağılmış binaların bir qisminin açıq muzeyi tikiləcək. Ağdamın Azərbaycanın ən böyük şəhərlərindən birinə çevirilməsi planlaşdırılır.

26 may 2021-ci ildə uzunluğu 44,5 km olan Bərdə–Ağdam avtomobil yolunun tikintisinə başlanılmışdır. İki gün sonra, mayın 28-də bərpa işlərinin başlanması mərasimi olmuşdur.




16 noyabr 2020-ci ildə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli və Cəbrayıl rayonlarında "Zəfər yolu" kimi tanınan Füzuli–Şuşa avtomobil yolunun təməlqoyma mərasimində olmuşdur. Səfərdən dərhal sonra Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun tikintisi layihəsinə başlanılmışdır. Bildirilmişdir ki,

uzunluğu 101,5 kilometr, eni isə 37,7 metr olan yol Füzuli, Xocavənd və Xocalı rayonlarından keçəcək. Azərbaycan Prezidentinin 15 yanvar 2021-ci ildə Şuşa və Füzuliyə səfəri zamanı Füzuli–Şuşa avtomobil yolunun və Füzuli Beynəlxalq Hava Limanının layihələrinə start verilmişdir. Hava limanında ilk uçuş sınaqları 22 avqust 2021-ci ildə keçirilmişdir. 27 oktyabr 2021-ci il tarixində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılış mərasimi keçirilmişdir.



9 oktyabr 2020-ci ildə işğaldan azad olunan Hadrutda yenidənqurma işlərinə yolların bərpası ilə başlanılıb. Prezident Əliyev 2021-ci il martın 15-də uzunluğu 13 kilometr olan Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyub. . Bildirilib ki, Cəbrayıl rayonunun ərazisindən keçən Hadrut-Cəbrayıl-Şükürbəyli Şükürbəylidə Hacıqabul -Mincivan-Zəngəzur avtomobil yoluna birləşdiriləcək . 43 km uzunluğunda olması planlaşdırılan yolda 4 zolaqlı və yol körpüləri tikiləcək. Bundan başqa, 18 kilometr uzunluğunda Tuğ — Hadrut avtomobil yolunun tikintisinin davam etdiyi bildirilir.

8 noyabr 2020-ci ildə Şuşa Azərbaycan ordusu tərəfindən azad edilmişdir. 2020-ci ilin axırlarında Füzuli istiqamətindən avtomobil yolunun olmamasına baxmayaraq, şəhərdə bərpa işlərinə artıq başlanıldığı açıqlanmışdır.

2021-ci ilin yanvar ayının əvvəlində şəhər beşulduzlu hotelin tikintisini elan etmişdir. Şuşa qalasının bərpasına 2021-ci ilin fevral ayının əvvəlində başlanılmışdır. Azərbaycan hökuməti 2021-ci il mayın əvvəlində müharibə nəticəsində dağıdılmış Qazançı kilsəsinin bərpa olunduğunu elan etmişdir.



2021-ci il iyunun əvvəlində Heydər Əliyev Fondu tərəfindən Şuşada üç dini binanın, Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin bərpasına başlanıldığı bildirilmişdir. 22 iyunda Azərbaycan Prezidenti Şuşa Şəhər Dövlət Qoruğunun yaradılması haqqında sərəncam imzalamışdır. 14 yanvar 2021-ci ildə Vaqif türbəsinin bərpa işlərinə başlanılmış və 29 avqustda onun açılışı olmuşdur. Həmin gün Üzeyir Hacıbəylinin abidəsinin açılışı olmuşdur.

Kəlbəcər 1993-cü ildə Ermənistan qoşunları tərəfindən işğal edilmiş, 25 noyabr 2021-ci ildə atəşkəs razılaşmasına əsasən Azərbaycana təhvil verilmişdir.

2–4 hərəkət zolaqlı, uzunluğu 81 km olan Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunun genişmiqyaslı tikintisinə 23 iyul 2021-ci il tarixində başlanılmışdır. Magistral yolun üzərində yerləşən 11,6 kilometrlik Murovdağ tunelinin təməli İlham Əliyev və Mehriban Əliyevanın iştirakı ilə 16 avqust 2021-ci ildə qoyulmuşdur. Həmin gün uzunluğu 72,8 kilometr olan Kəlbəcər–Laçın avtomobil yolunda tikintisi nəzərdə tutulan 3,4 kilometr uzunluğunda tunelin tikintisinə başlanılmışdır. Bundan əlavə, uzunluğu 51 km olan Kəlbəcər və Laçın rayonlarını birləşdirən ikinci halqaya çevrilməsi nəzərdə tutulan İstisu–Minkənd yolunun yenidən qurulmasına başlanılmışdır.

Zəngilan 29 oktyabr 1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmiş, 20 oktyabr 2020-ci ildə isə Azərbaycan qüvvələri şəhəri azad etmişdir.

14 fevral 2021-ci ildə İlham Əliyev və Mehriban Əliyeva Zəngilan rayonuna səfər edərək Ağalı kəndində "ağıllı kənd" layihəsinin istifadəyə verildiyini bildirmişdir. Eyni zamanda, Azərbaycanı Türkiyə ilə birləşdirən Horadiz–Zəngilan–Ağbənd dəmir yolunun təməli



qoyulmuşdur. 18 mart 2021-ci il tarixində Türkiyənin Kənd Təsərrüfatı və Meşə Naziri Bəkir Pakdemirlinin rəhbərlik etdiyi nümayəndə heyəti Zəngilanda olmuş, Ağalı kəndində Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi və Türkiyə Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılmış "Qardaşlar bağı"nın açılışını etmişdir.

1 may 2021-ci ildə Zəngilan Beynəlxalq Hava Limanının tikintisinə başlanıldığı barədə məlumat yayılmışdır. Hava limanında tikinti işlərinin 2022-ci ildə başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev 20 oktyabr 2021-ci ildə "Zəngilan şəhərinin baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Prezident həmçinin, Azərbaycan Respublikasının Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğunun bərpası haqqında sərəncam imzalamışdır.

26 oktyabrda Azərbaycan və Türkiyə prezidentləri Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun təməlqoyma mərasimində iştirak etmişdir. Səfər zamanı dövlət başçıları Türkiyənin dəstəyi ilə salınması planlaşdırılan "Dost" aqroparkının da təməlini qoyublar.

İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən məqsədyönlü fəaliyyətin əsas məqamlarından biri Azərbaycan vətəndaşlarının tam təhlükəsiz şəraitdə regionda yenidən məskunlaşmasının ən qısa zamanda təmin edilməsidir. Bu istiqamətdə görülən işlər çərçivəsində vətəndaşların mərhələli şəkildə həmin ərazilərə müntəzəm səfərlərinin təşkili məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən işğaldan azad olunmuş ərazilərə avtobus marşrutları açılmışdır.

Şuşa və Ağdam şəhərlərinə ilk müntəzəm avtobus marşrutları 24 yanvar 2022-ci il tarixində istifadəyə verilmişdir. Füzuli istiqamətinə ilk müntəzəm avtobus reysi 25 iyun tarixində həyata keçirilmişdir.

Sərnişin daşınması ilə bağlı sistemliliyin təmin edilməsi və məlumat bazasının formalaşdırılması məqsədilə marşrut xətləri üzrə bilet satışı "www.yolumuzqarabaga.az" portalı üzərindən onlayn qaydada həyata keçirilir. Təhlükəsizliyin təmin olunması, işğaldan azad edilmiş ərazilərə giriş icazəsinin bilet alışı prosesi ilə sinxronlaşdırılması, güzəşt tətbiq ediləcək şəxslərin müəyyənləşdirilməsi üçün onlayn bilet satışı portalı müvafiq informasiya sistemlərinə inteqrasiya edilmişdir. Vətəndaşlar bilet almaq üçün şəxsiyyətini təsdiq edən sənəddəki məlumatları sistemə daxil etməlidirlər. Hər bir bilet yalnız şəxsiyyət vəsiqəsi ilə eyniləşdirilən vətəndaş tərəfindən istifadə oluna bilər. Biletlər alındıqdan sonra başqa şəxsə transfer edilməsi mümkün deyil. Sərnişinlər gediş və qayıdış biletlərini əvvəlcədən eyni vaxtda sifariş etməlidirlər. Səfər zamanı təhlükəsizliyin təmin edilməsi məqsədilə sərnişinləri polis əməkdaşları müşayiət edir. Şuşa, Ağdam və Füzuli şəhərlərində sərnişinlər tarixi, mədəni və dini abidələri ziyarət edirlər.



Şuşada Vaqifin məqbərəsi yenidən qurulmuş, Yuxarı Gövhər Ağa və Saatlı məscidləri bərpa edilmişdir. Digər təmir-bərpa edilən abidələr Mamayı məscidi, Mehmandarovların evi və məscidi, Şirin su hamamıdır. Çöl Qala və Aşağı Gövhər ağa

məscidlərinin təmir-bərpası davam edir, Üzeyir Hacıbəylinin evi yenidən qurulur. Şuşada Vaqif və Üzeyirin büstləri yenidən qoyulmuşdur. Şəhərdə ənənəvi Şuşa memarlığı üslubunda mehmanxana inşa edilmişdir.



2021-ci ildə Xocavənd rayonunun Hadrut qəsəbəsində "Dəmir yumruq" abidəsi qoyulmuşdur. Hadrut qəsəbəsində yerləşən zəfər şəhidlərinin xatirə kompleksinin qarşısında yerləşən abidənin üzərində əsgər təsviri və Azərbaycan Silahlı Qüvvələrinin arsenalında yer alan pilotsuz uçuş aparatları əks olunub.

Azərbaycanın Qarabağdakı hərbi kontingenti müharibədən sonrakı ilk Novruz bayramını azad olunmuş torpaqlarda, o cümlədən Kəlbəcərdə, Laçında, Şuşada, Ağdamda və digər yerlərdə tonqallar qalamaqla qeyd etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Şuşada, Cıdır düzündə bayram tonqalını qalamışdır.




2021-ci ilin mayın 12-də Şuşada Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə iki günlük "Xarı Bülbül" beynəlxalq musiqi festivalı keçirilmişdir. Festivalda avar, azərbaycanlı, kürd, ləzgi, rus, talış, tat, tatar, saxur, gürcü musiqiçiləri çıxış etmişdir. Bu 30 ildən sonra Qarabağda keçirilən ilk "Xarı Bülbül" festivalı idi.

2021-ci ilin avqustunda Şuşada Molla Pənah Vaqifin poeziya günləri baş tutmuşdur, bu, Şuşa şəhəri ermənilərin nəzarətində olduğu dövrdə şairin böyük ziyan görmüş məqbərəsinin yenidən açılışına təsadüf etmişdir. Sentyabrın 18–24-də Şuşada Üzeyir Hacıbəyov adına XIII Beynəlxalq Musiqi Festivalı keçirilmiş, bu festivalda Azərbaycanın bədii kollektivləri və solistləri ilə yanaşı ABŞ və Polşa musiqiçiləri də çıxış etmişdir. 2022-ci ildə Şuşa şəhərinin 270 illiyinin keçirilməsi gözlənilir.

21 dekabr 2023-cü ildə Xankəndi şəhər stadionunda Qarabağ FK ilə MOİK Bakı FK-ın oyunu keçirilmişdir. Bu işğaldan azad edilmiş Azərbaycan ərazilərindəki ilk futbol oyunu olaraq tarixə keçmişdir.

2020-ci il İkinci Qarabağ müharibəsindən sonra Qarabağın işğaldan azad edilmiş hissəsinə və Şərqi Zəngəzura azərbaycanlıların geri qaytarılması üçün işlər başladılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev 14 fevral 2024-cü ildə keçirilən andiçmə mərasimində 2026-cı ilə qədər Böyük Qayıdış proqramının I mərhələsinin tamamlanacağını və bu mərhələdə 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağını qeyd etmişdir.

26 avqust 2022-ci ildə Laçın dəhlizinin köhnə ərazisinin (Laçın şəhəri, Sus və Zabux kəndləri) Azərbaycan nəzarətinə keçməsindən sonra Laçın şəhərinə qayıdış üçün işlər başladılmışdır. 19–20 sentyabr 2023-cü ildə keçirilən Qarabağ əməliyyatından sonra Xankəndi və Xocalı Azərbaycan nəzarətinə keçmiş, bu ərazilərə də azərbaycanlıların qayıdışı üçün işlər başladılmışdır.

Əslən Qarabağdan və Şərqi Zəngəzurdan olmayan şəxslərin Qarabağda ev sahibi olması dövlət proqramına aid deyil, özəl şirkətlər vasitəsilə həyata keçirilir. Daha sonra Daşaltıda məcburu köçkün olmayan və burada daşınmaz əmlak əldə etmək istəyən şəxslər üçün özəl evlərin tikiləcəyi elan edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevə görə, minaların təmizlənməsi və infrastrukturun bərpası işlərindən sonra, 2022-ci ildən başlayaraq azərbaycanlıların azad edilmiş ərazilərə geri qayıtması planlaşdırılmışdır. Şuşa üçün hazırlanmış yeni plana görə şəhərin tarixi xarakterinə

uyğun şəkildə qurulmuş yaşayıq yerlərində yaşamaq üçün, ilk növbədə simvolik olaraq 2020 nəfər şuşalı geri dönməlidir. Ancaq bu plan icra edilməmiş, 10 may 2024-cü il tarixində 20 ailə olmaqla 88 nəfər Şuşaya köçmüşdür.

16 mart 2023-cü ildə Talış kəndinə 20 məcburi köçkün ailəsi geri qayıtmışdır. 18 avqust 2023-cü ildə Füzuli şəhərinə ilk köç (90 nəfərdən ibarət 25 ailə) baş vermişdir. 24 iyun 2024-cü il tarixində Xankəndidə artıq 3 mindən çox Azərbaycan vətəndaşının yaşadığı elan edilmişdir.

Zəngilan rayonunun Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin Qarabağ və Şərqi Zəngəzurda məskunlaşılan ilk ərazilər olması planlaşdırılmışdır. Ağalı kənd sakinlərinin ilk qrupu 19 iyul 2022-ci ildə Zəngilana köçürülmüşdür. 27 may 2023-cü ildə Laçın şəhərinə ilk köç baş vermiş, 20 laçınlı ailə (97 nəfər) geri qayıtmışdır. 25 avqust 2023-cü ildə Laçının Zabux kəndinə ilk köç baş vermiş, I Qarabağ müharibəsi şəhidinin ailəsi daxil olmaqla 20 ailə (88 nəfərdən ibarət) geri qayıtmışdır.



2023-cü ilin sentyabr ayında keçirilmiş antiterror əməliyyatı nəticəsində Azərbaycan Xankəndi şəhərinə nəzarətini bərpa etdi. Bundan sonra, Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2023-cü il tarixili Sərəncamı ilə Qarabağ Universitetinin yaradılması haqqında qərar verilmişdi. Yeni yaradılmış Qarabağ Universitetində dərslərin 2024-cü ilin 15 sentyabr tarixindən başlanmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli qərarı ilə Qarabağ Universitetinin Nizamnaməsi təsdiq olunub.

15 fevral 2024-cü ildə prezident İlham Əliyevin sərəncamı ilə Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə 10 milyon manat ayrılıb.

20 may 2024-cü ildə Şahin Bayramov universitetin rektoru təyin olunub.

20 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edib. O, Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşüb və çıxış edib.

14 dekabr 2021-ci ildə Azərbaycan və Ermənistanın Brüssel görüşündən sonra bütün mina xəritələrinin Azərbaycana verildiyi qeyd edilmişdir. Azərbaycan tərəfinə görə xəritələrin dəqiqliyi yalnızca 25 faizdir. Türkiyə Azərbaycana 25 MEMATT (Mexaniki Mina Təmizləmə Təchizatı) maşını vermiş, mina və partlayıcı qurğuların zərərsizləşdirilməsi üzrə Türkiyənin hərbi istehkamçıları Qarabağda mina təmizləmə işlərinə kömək etmişdir. Böyük Britaniya mina təmizlənməsi sahəsində və Böyük Qayıdışın təhlükəsizliyini təmin etmək üçün Azərbaycana maliyyə yardımı ayırmışdır. Bundan başqa, Avropa İttifaqı Azərbaycanın minatəmizləmədə ən böyük tərəfdaşlarından biridir.

Türkiyə, Rusiya, İsrail, İtaliya, Macarıstan və digər ölkələrin şirkətləri Qarabağ və Şərqi Zəngəzurun bərpasında iştirak edirlər. Füzuli rayonunda Özbəkistan dövlətinin sərmayəsi ilə məktəb, Qazaxıstan tərəfinin sərmayəsi ilə isə Yaradıcılıq Mərkəzi tikilməsi qərarlaşdırılmışdır. Azərbaycan və Özbəkistan rəsmiləri 23 avqust 2023-cü ildə Füzulidəki Mirzə Uluqbəy adına məktəbin açılışında iştirak ediblər.

Qırğızıstan sərmayəsi ilə Ağdamın Xıdır kəndində orta məktəb tikiləcəyi elan edilmişdir. Türk Mədəniyyəti və İrsi Fondu Füzulinin Qoçəhmədli kəndinin bərpasında iştirak etmək

istədiyini bəyan etmişdir. Türkiyə Şuşada qurduğu seysmoloji stansiyasını Azərbaycana hədiyyə etmişdir.

30 ilə yaxın müddətdə doğma yurd-yuvasından ayrı düşən insanların tez bir zamanda işğaldan azad olunan ərazilərə qayıtması üçün genişmiqyaslı bərpa və infrastruktur quruculuğu işləri ilə yanaşı onların məşğulluğunun təmin edilməsi, sosial müdafiəsinin gücləndirilməsi, yeni iş yerlərinin açılması, keyfiyyətli səhiyyə və təhsil, zəruri rabitə infrastrukturu və digər xidmət sahələrinin yaradılması dövlətimiz tərəfindən bütün incəlikləri ilə nəzərə alınmışdır.

İllər sonra yenidən bu torpaqlarda xoşbəxt ailələr bərəkətli süfrələrin ətrafında toplanacaq, evlər uşaqların şən gülüşləri ilə dolacaqdır. Biz burada əsrlərdən gələn adət və ənənələri, milli mətbəxin bölgəsəl sirlərini, milli müsiqimizin ən gözəl notlarını, şanlı tariximizi Azərbaycan ailəsinin gündəlik həyatında yaşadacağıq.